**Təsdiq edirəm:**
Biznes mühiti və beynəlxalq reytinqlər
üzrə Komissiyanın sədri, Azərbaycan
Respublikası Baş nazirinin birinci
müavini Yaqub Eyyubov

__________________

07.10.2022-ci il

**Dünya Bankı Qrupunun "Əlverişli Biznes Mühiti" layihəsinin "Beynəlxalq ticarət" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin həyata keçirilməsinə dair 2022-2023-cü illər üzrə Yol Xəritəsi**

| Sıra №-si | Alt komponentlərin tələbləri | Görüləcək tədbirlər | Son icra müddəti | İcraçı qurumlar | Məsul şəxslər |
|---|---|---|---|---|---|
| **1. Beynəlxalq ticarət qaydalarının keyfiyyəti** | | | | | |
| **1.1. Mallara münasibətdə beynəlxalq ticarətə imkan yaradan qabaqcıl normativ təcrübələr** | | | | | |
| 1.1.1. | Ədalətli və proqnozlaşdırıla bilən beynəlxalq ticarəti təmin edən qayda və qanunlar | 1. İxrac əməliyyatları üzrə hesablaşmalarla əlaqədar problemlərin araşdırılması, beynəlxalq təcrübənin öyrənilməsi və qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.04.2023 | İqtisadiyyat Nazirliyi,<br>Mərkəzi Bank,<br>Dövlət Gömrük Komitəsi | Kamran Əhmədov,<br>Ataxan Həsənov,<br>Sənan Muxtarov,<br>Tariyel Alverdiyev |
| | | 2. Gömrük dəyərinin müəyyən edilməsi metodlarının tətbiqinə dair təlimatın hazırlanması | Gömrük dəyəri ilə bağlı təqdim edilmiş qanunvericilik layihələri qəbul edildikdən sonra 3 ay ərzində | İqtisadiyyat Nazirliyi,<br>Maliyyə Nazirliyi,<br>Dövlət Gömrük Komitəsi | Kamran Əhmədov,<br>Elçin Camalov,<br>Sənan Muxtarov,<br>Fuad Məmmədov |
| | | 3. Daxildə emal xüsusi gömrük prosedurunun əhatə dairəsinin ixrac yönümlü yerli istehsalın artımına dəstək verəcək şəkildə genişləndirilməsi ilə bağlı araşdırma aparılması və qanunvericilikdə dəyişikliklərlə əlaqədar təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 31.12.2022 | İqtisadiyyat Nazirliyi (o cümlədən İqtisadi Zonaların İnkişafı Agentliyi),<br>Maliyyə Nazirliyi,<br>Dövlət Gömrük Komitəsi | Kamran Əhmədov,<br>Elxan Şiriyev,<br>Elçin Camalov,<br>Rauf Məmmədov,<br>Sənan Muxtarov |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 4. Ölkədə istehsal edilməyən və ya kifayət qədər olmayan xammal, hissə, avadanlıq, material və texnikanın idxalına tətbiq olunan rüsumların azaldılması istiqamətində təhlillərin aparılması və müvafiq qanunvericilik layihəsinin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 31.12.2022 | İqtisadiyyat Nazirliyi (o cümlədən İqtisadi Zonaların İnkişafı Agentliyi), Maliyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi | Xəzər Bəşirov, Elxan Şiriyev, Elçin Camalov, Sənan Muxtarov, Fuad Məmmədov |
| | | 5. Tərkibində əqli mülkiyyət hüquqlarının obyektləri olan mallar üzərində gömrük nəzarətinin daha səmərəli şəkildə aparılması üçün əqli mülkiyyət hüquqlarının obyektləri olan malların elektron reyestrinin beynəlxalq təcrübəyə uyğunlaşdırılması və bu sahədə gömrük qanunvericiliyinin təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.06.2023 | Dövlət Gömrük Komitəsi, Əqli Mülkiyyət Agentliyi, İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti) | Sənan Muxtarov, Tuncay Əlibəyli, Rəcəf Orucov, Kamran Əhmədov, Şahin Nağıyev |
| 1.1.2. | Beynəlxalq standartlar üzrə sazişlərə və konvensiyalara üzvlük | Beynəlxalq ticarət (o cümlədən tranzit) ilə əlaqədar standartlar müəyyən edən saziş və konvensiyaların təhlil edilməsi, Azərbaycanın hazırkı tarixədək qoşulmamasının onun beynəlxalq reytinqlərdəki mövqeyinə mənfi təsir göstərdiyi sazişlərin müəyyən edilməsi və həmin sazişlərə qoşulma imkanlarının nəzərdən keçirilməsi | 01.04.2023 | İqtisadiyyat Nazirliyi (o cümlədən Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti), Ədliyyə Nazirliyi, Qida Təhlükəsizliyi Agentliyi, Dövlət Gömrük Komitəsi, Xarici İşlər Nazirliyi | Gülçin Ələsgərova, İlqar Həsənov, Rəşad Həsənov, Əkbər Əliyev, Sənan Muxtarov, Fərid Vəliyev |
| 1.1.3. | Beynəlxalq ticarət qaydaları hazırlanarkən və ya ticarət siyasəti təqdim olunan zaman əvvəlcədən məlumatlandırma və maraqlı tərəflərlə məsləhətləşmə | 1. Maraqlı tərəflərlə məsləhətləşmə mexanizminin işləkliyi, o cümlədən aidiyyəti dövlət orqanlarının internet səhifələrində müvafiq normativ hüquqi aktların və normativ xarakterli aktların ictimai müzakirəsi üzrə bölmənin fəaliyyətinin təhlili ilə bağlı sahibkarlar və maraqlı tərəflər arasında sorğu keçirilməsi və nəticələrinin Komissiyaya təqdim edilməsi | 31.12.2022 | İqtisadiyyat Nazirliyi (Kiçik və Orta Biznesin İnkişafı Agentliyi) | Zaur Qardaşov |
| | | 2. Maraqlı tərəflərlə məsləhətləşmə mexanizmindən istifadənin genişləndirilməsi imkanlarının araşdırılması və müvafiq təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması | 01.04.2023 | İqtisadiyyat Nazirliyi (Kiçik və Orta Biznesin İnkişafı Agentliyi), Ədliyyə Nazirliyi | Zaur Qardaşov, Rəşad Həsənov |

| | | | | | |
|---|---|---|---|---|---|
| 1.1.4 | Beynəlxalq ticarət üzrə milli qanunvericiliyin beynəlxalq sənədlər əsasında təqdim olunan tövsiyə və məsləhətlərə uyğunluq səviyyəsi | Ümumdünya Ticarət Təşkilatının Ticarətin Asanlaşdırılması Sazişində nəzərdə tutulmuş tələblərdən biri olan Ticarətin Asanlaşdırılması üzrə Milli Komitənin yaradılmasını nəzərdə tutan normativ hüquqi akt layihəsinin razılaşdırılmasının başa çatdırılması istiqamətində işlər görülməsi | 01.04.2023 | İqtisadiyyat Nazirliyi, Dövlət Gömrük Komitəsi | Kamran Əhmədov, Sənan Muxtarov |
| **1.2. Rəqəmsal ticarətə imkan yaradan qabaqcıl normativ təcrübələr** | | | | | |
| 1.2.1. | Xarici əməliyyatlar üzrə təhlükəsiz elektron ödəmə sistemlərinin mövcudluğu | 1. Rəqəmsal ticarət platformaları üzərindən ixracdan əldə edilən ödənişlərin qəbul edilməsinin asanlaşdırılması məqsədilə xarici ödəniş xidməti təchizatçıları və xarici ödəniş sistemi operatorlarının ölkə bazarına cəlb edilməsi üçün onlarla kommunikasiyanın təşkil edilməsi istiqamətində zəruri tədbirlərin görülməsi | 01.03.2023 | Mərkəzi Bank, İqtisadiyyat Nazirliyi (Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO) | Ataxan Həsənov, Zaur Qardaşov, Tural Hacılı |
| | | 2. Sahibkarların rəqəmsal ticarət üzrə savadlılığının artırılması məqsədilə təlimlərin keçirilməsi, beynəlxalq rəqəmsal ticarət platformalarında ortaq satış hesablarının yaradılması mexanizmi ilə bağlı araşdırmaların aparılması və təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.03.2023 | İqtisadiyyat Nazirliyi (Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, AZPROMO) | Zaur Qardaşov, Tural Hacılı |
| 1.2.2. | Rəqəmsal ticarətin istifadəçiləri və xidmət təminatçılarının hüquqi müdafiəsinin təmin edilməsi | Rəqəmsal ticarətdə istehlakçıların və xidmət təminatçılarının hüquqlarının müdafiəsi ilə bağlı beynəlxalq qaydaların və ən yaxşı təcrübələrin öyrənilməsi, nəticələri üzrə müvafiq təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.03.2023 | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi) | İlqar Həsənov, Roman Qaraşov, Zaur Qardaşov |
| **1.3. Ekoloji baxımdan dayanıqlı ticarətə imkan yaradan qabaqcıl normativ təcrübələr** | | | | | |
| 1.3.1. | Sərhəd Karbon Tənzimləmələrinin müəyyən edilməsi | Sərhəd Karbon Tənzimləmələrinin tətbiqi ilə bağlı ən yaxşı təcrübələrin öyrənilməsi, onların tətbiq imkanlarının araşdırılması və nəticələri barədə Komissiyaya məlumat verilməsi | 01.02.2023 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi | Zaur Zeynalov, Səriyyə Bünyatova, Elçin Camalov, Rauf Məmmədov |
| 1.3.2. | Ekoloji mallar (məhsullar, nəqliyyat vasitələri) üzrə daha aşağı tariflərin müəyyən edilməsi | 1. Ekoloji mal kimi təsnif olunan malların siyahısının müəyyən edilməsi və işçi qrupa təqdim edilməsi | 01.02.2023 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | Zaur Zeynalov |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 2. İdxal zamanı ekoloji mallara üstünlük verilməsi ilə bağlı xarici ölkələrin təcrübəsinin araşdırılması və ölkəmizdə tətbiqi mümkün olan tədbirlərlə bağlı təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.04.2023 | İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi | Gülçin Ələsgərova, Elçin Camalov, Rauf Məmmədov, Zaur Zeynalov |
| | | 3. Elektrik mühərrikli və hibrid nəqliyyat vasitələrindən istifadənin stimullaşdırılması məqsədilə onların, o cümlədən enerji doldurucu qurğu və avadanlıqların idxalına tətbiq olunan güzəşt və azadolmaların müvafiq bazara təsirinin qiymətləndirilməsi və nəticələri barədə Komissiyaya məlumat verilməsi | 01.02.2023 | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti), Dövlət Gömrük Komitəsi, Dövlət Statistika Komitəsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi | Rəşid Həsənov, Rauf Məmmədov, Aida İbrahimova, Zaur Zeynalov |
| | | 4. Elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadənin stimullaşdırılması məqsədilə onlara, o cümlədən enerji doldurucu qurğu və avadanlıqlara idxal gömrük rüsumları və vergilər üzrə əlavə güzəştlərin tətbiqi imkanlarının qiymətləndirilməsi və zəruri olduqda müvafiq təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.04.2023 | İqtisadiyyat Nazirliyi (o cümlədən Dövlət Vergi Xidməti), Dövlət Gömrük Komitəsi, Maliyyə Nazirliyi | Rəşid Həsənov, Kamran Əhmədov, Rauf Məmmədov, Elçin Camalov |
| | | 5. İstismarı ekoloji cəhətdən zərərli sayılan köhnəlmiş nəqliyyat vasitələrinin idxalının və istifadəsinin məhdudlaşdırılması, ekoloji təmiz və təhlükəsizlik xüsusiyyətləri yüksək olan nəqliyyat vasitələrinin isə idxalının, ölkə ərazisində alqı-satqısının, habelə sair formada dövriyyəsinin stimullaşdırılması məqsədilə aksiz dərəcələrinin mərhələli şəkildə adekvat olaraq dəyişdirilməsinə dair təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim olunması | 01.06.2023 | İqtisadiyyat Nazirliyi (o cümlədən Dövlət Vergi Xidməti), Dövlət Gömrük Komitəsi, Maliyyə Nazirliyi | Rəşid Həsənov, Kamran Əhmədov, Rauf Məmmədov, Elçin Camalov |
| **1.4. Mallara münasibətdə beynəlxalq ticarətə qoyulan normativ məhdudiyyətlər** | | | | | |
| 1.4.1. | Texniki xüsusiyyətlər (sanitar və fitosanitar tədbirlər, ticarət üzrə texniki məhdudiyyətlər və s. ) | 1. "Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların idxal Qaydaları"nın layihəsinin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | 01.05.2023 | Qida Təhlükəsizliyi Agentliyi | Əkbər Əliyev |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 2. “Texniki tənzimləmə haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqindən irəli gələrək uyğunluğun qiymətləndirilməsi sxemlərinin (modullarının) ümumi siyahısı və həmin sxemlərin (modulların) müddəalarını ətraflı ehtiva edən uyğunluğun qiymətləndirilməsi prosedurlarının, habelə malların risk qruplarının təyin edilməsi meyarlarının hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | 31.12.2023 | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti) | İlqar Həsənov |
| | | 3. Nəqliyyat vasitələrinə, onların ehtiyat hissələrinə, ləvazimat və istismar materiallarına dair Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələrə uyğun texniki reqlamentlərin hazırlanması, texniki reqlamentlərə cavab verməyən nəqliyyat vasitələrinin, onların ehtiyat hissələrinin, ləvazimat və istismar materiallarının ölkəyə idxalının, satışının, istifadəsinin, habelə sair formada dövriyyəsinin qarşısının alınması üçün zəruri tədbirlərin görülməsi | 01.06.2023 | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti), Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi | İqar Həsənov, Şahin Nağıyev, Turqay Şıxlinski, Rauf Məmmədov, Zaur Zeynalov |
| 1.4.2. | İcbari lisenziyalaşdırma və üzvlük tələbləri | “Gömrük ərazisinə idxalına, ixracına və tranzitinə qadağa və məhdudiyyət tədbirləri tətbiq olunan bəzi malların kodlu siyahısı” layihəsinin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | 01.05.2023 | Dövlət Gömrük Komitəsi, İqtisadiyyat Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Səhiyyə Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Mərkəzi Bank | Rauf Məmmədov, Tuncay Əlibəyli, Kamran Əhmədov, Turqay Şıxlinski, Zaur Zeynalov, Ataxan Həsənov |
| **2. Mallar üzrə beynəlxalq ticarətin təşviq edilməsi üçün dövlət xidmətlərinin keyfiyyəti** | | | | | |
| **2.1. İnformasiyanın şəffaflığı və əlçatanlığı** | | | | | |
| 2.1.1. | Beynəlxalq ticarət prosedurlarının və qaydalarının geniş və ardıcıllıqla izah edildiyi müvafiq dövlət internet səhifəsi və ya ticarət informasiya portalı | Mövcud portallar və internet səhifələrinin bazasında vahid ticarət informasiya portalının yaradılması | 01.09.2023 | İqtisadiyyat Nazirliyi (AZPROMO, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi), Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Dövlət Gömrük Komitəsi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi | Tural Hacılı, Zaur Qardaşov, Əbdül Əliyev, Rauf Məmmədov, Tuncay Əlibəyli, Turqay Şıxlinski, Nicat Hacızadə |

| | | | | | |
|---|---|---|---|---|---|
| **2.2. Elektron sistemlər və xidmətlərin qarşılıqlı fəaliyyəti** | | | | | |
| 2.2.1. | Elektron bir pəncərə (Single Window) sistemi vasitəsilə dövlət orqanları və digər ticarət tərəfdaşları arasında əlaqələndirmə | Aidiyyəti qurumların təklifləri əsasında mövcud elektron sistemlərin diaqnostikasının aparılması, çatışmayan tərəflərinin araşdırılması və beynəlxalq təcrübə təhlil edilməklə mövcud sistemlərin əlaqələndirilməsi yolu ilə əlavə xərclərə yol verilmədən xarici ticarət üzrə elektron bir pəncərə sisteminin qurulmasının nəzərdən keçirilməsi | 01.03.2023 | Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti), Dövlət Gömrük Komitəsi, Qida Təhlükəsizliyi Agentliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi | Əbdül Əliyev, Turqay Şıxlinski, Kamran Əhmədov, İlqar Həsənov, Rauf Məmmədov, Mübariz Mustafayev, Tuncay Əlibəyli, Əkbər Əliyev, Zaur Zeynalov, Nicat Hacızadə |
| 2.2.2. | Elektron bir pəncərə (Single Window) sistemi üzrə qarşılıqlı fəaliyyətin ikitərəfli, regional və ya çoxtərəfli formada təşkili | Elektron bir pəncərə sisteminin qurulması nəzərdən keçirilən zaman aidiyyəti qurumların təklifləri nəzərə alınmaqla digər ölkələrin oxşar platformaları ilə qarşılıqlı fəaliyyət imkanlarının təhlil edilməsi | 01.03.2023 | Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti), Dövlət Gömrük Komitəsi, Qida Təhlükəsizliyi Agentliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi | Əbdül Əliyev, Turqay Şıxlinski, Kamran Əhmədov, İlqar Həsənov, Rauf Məmmədov, Mübariz Mustafayev, Tuncay Əlibəyli, Əkbər Əliyev, Zaur Zeynalov, Nicat Hacızadə |
| **2.3. Gömrük agentliyi proqramları** | | | | | |
| 2.3.1. | Səlahiyyətli iqtisadi operatorlar | Səlahiyyətli iqtisadi operator institutu ilə bağlı qanunvericiliyin beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilməsi və həmin institutun təcrübədə tətbiqi üzrə zəruri tədbirlərin görülməsi | 01.10.2023 | Dövlət Gömrük Komitəsi, İqtisadiyyat Nazirliyi (o cümlədən Kiçik və Orta Biznesin İnkişafı Agentliyi) | Rauf Məmmədov, Kamran Əhmədov, Zaur Qardaşov |
| 2.3.2. | Sürətləndirilmiş göndərişlər | ÜTT-nin Ticarətin Asanlaşdırılması Sazişinin tələbləri də nəzərə alınmaqla xarici ölkələrin sürətləndirilmiş göndərişlərlə bağlı təcrübəsinin öyrənilməsi və nəticələri üzrə müvafiq təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 31.12.2023 | İqtisadiyyat Nazirliyi, Dövlət Gömrük Komitəsi | Kamran Əhmədov, Rauf Məmmədov, Tuncay Əlibəyli |

| | | | | | |
|---|---|---|---|---|---|
| **2.4. Daxili/xarici əməkdaşlıq** | | | | | |
| 2.4.1. | İkitərəfli, regional və ya çoxtərəfli ticarət sazişlərində iştirak | 1. Yeni ticarət sazişlərinin imzalanması imkanlarının araşdırılması, habelə preferensial sazişlərin bağlanması və ya mövcud sazişlərin çərçivəsinin genişləndirilməsi ilə bağlı təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.10.2023 | İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi, Xarici İşlər Nazirliyi | Gülçin Ələsgərova, Elçin Camalov, Rauf Məmmədov, Fərid Vəliyev |
| | | 2. Müvafiq alt-indikator üzrə sazişlərdə iştirakın qiymətləndirilməsi ÜTT-nin Regional Ticarət Sazişləri barədə məlumat bazasına əsaslanacağından Azərbaycanın tərəf olduğu mövcud sazişlər barədə məlumatların ÜTT-yə göndərilməsi | 31.12.2022 | İqtisadiyyat Nazirliyi | Gülçin Ələsgərova |
| **2.5. Ticarət infrastrukturu** | | | | | |
| 2.5.1. | Gömrük anbarları | Daimi fəaliyyət göstərən müvəqqəti saxlanc və gömrük anbarları sisteminin inkişaf etdirilməsi ilə bağlı təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.04.2023 | İqtisadiyyat Nazirliyi (İqtisadi Zonaların İnkişafı Agentliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi), Dövlət Gömrük Komitəsi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | Emil Hacıyev, Zaur Qardaşov, Rauf Məmmədov, Turqay Şıxlinski |
| 2.5.2. | Dövlət sərhəd buraxılış məntəqələri | Dövlət sərhəd buraxılış məntəqələrinin mövcud infrastrukturunun yaxşılaşdırılması, eləcə də bəzi sərhəd buraxılış məntəqələrindən ixtisaslaşdırılmış şəkildə olmaqla yalnız şəxslərin, minik nəqliyyatı vasitələrinin, avtobusların və ya yük nəqliyyat vasitələrinin keçidinin təmin edilməsi üçün istifadə olunması ilə bağlı təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.04.2023 | Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti, Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi (İqtisadi Zonaların İnkişafı Agentliyi, AZPROMO) | Rauf Məmmədov, Mübariz Mustafayev, Orxan İbrahimov, Elçin Camalov, Rəvayət Mustafayev, Tural Hacılı |
| Dünya Bankına Logistik Effektivlik İndeksinin hesablanması metodologiyası və indeksdə Azərbaycanla bağlı məlumatların yenilənməsinə dair sorğunun ünvanlanması | | | 31.12.2022 | İqtisadiyyat Nazirliyi | Gülçin Ələsgərova |

| | | | | | |
|---|---|---|---|---|---|
| **3. Malların idxal və ixrac edilməsi və elektron ticarətlə məşğul olmağın səmərəliliyi** | | | | | |
| **3.1. İdxal-ixrac tələblərinə əməl etmək üçün vaxt və xərclər** | | | | | |
| 3.1.1. | İnzibati tələblər | 1. İdxal-ixrac əməliyyatları zamanı aidiyyəti dövlət qurumları tərəfindən yığılan ödənişlərə dair beynəlxalq təcrübənin öyrənilməsi və nəticələri üzrə müvafiq təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.04.2023 | İqtisadiyyat Nazirliyi, Dövlət Gömrük Komitəsi, Maliyyə Nazirliyi, Qida Təhlükəsizliyi Agentliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Səhiyyə Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi | Kamran Əhmədov, Tariyel Alverdiyev, Fuad Məmmədov, Elçin Camalov, Əkbər Əliyev, Turqay Şıxlinski, Murad Süleymanov, Zaur Zeynalov |
| | | 2. Yaşıl dəhliz buraxılış sisteminin tətbiqi ilə bağlı sahibkarların üzləşdiyi çətinliklərin öyrənilməsi və zəruri təkmilləşdirmə tədbirlərinin həyata keçirilməsi | 01.02.2023 | Dövlət Gömrük Komitəsi, İqtisadiyyat Nazirliyi (AZPROMO, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi) | Rauf Məmmədov, Tural Hacılı, Zaur Qardaşov |
| | | 3. Sərhəd keçid məntəqələrinin yüklülüyünün azaldılması, sərhəd keçid prosedurlarının sadələşdirilməsi və sürətləndirilməsi məqsədilə Azərbaycan Respublikasının gömrük ərazisində Ticarətin Asanlaşdırılması Mərkəzlərinin əhatə dairəsinin alternativ mənbələr hesabına genişləndirilməsi ilə bağlı tədbirlərin görülməsi | 31.12.2023 | Dövlət Gömrük Komitəsi, İqtisadiyyat Nazirliyi | Rauf Məmmədov, Kamran Əhmədov |
| | | 4. Qida təhlükəsizliyi sahəsində laboratoriya sisteminin inkişaf etdirilməsi, regionlarda laboratoriyaların sayının alternativ mənbələr hesabına artırılması istiqamətində zəruri tədbirlərin görülməsi | 31.12.2023 | Qida Təhlükəsizliyi Agentliyi, İqtisadiyyat Nazirliyi (AZPROMO) | Əkbər Əliyev, Rauf Məmmədov, Tural Hacılı |
| | | 5. Sahibkarların xərclərinin azaldılması məqsədilə fitosanitar yoxlamalarla əlaqəli xərclərin optimallaşdırılması üçün müvafiq qanunvericilik aktlarının təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.10.2023 | Qida Təhlükəsizliyi Agentliyi, İqtisadiyyat Nazirliyi | Əkbər Əliyev, Kamran Əhmədov |
| | | 6. Malların gömrük sərhədindən sürətli keçidinin təmin edilməsi məqsədilə gömrük ekspertizasının aparılma müddətinin optimallaşdırılması və ekspertiza rəyi alınmış eyni malların yenidən gömrük ekspertizasına göndərilməməsi ilə bağlı təkmilləşdirmənin həyata keçirilməsi | 01.02.2023 | Dövlət Gömrük Komitəsi, İqtisadiyyat Nazirliyi | Rauf Məmmədov, Kamran Əhmədov |

| | | | | | |
|---|---|---|---|---|---|
| 3.1.2. | Ticarət maliyyəsi | İdxal-ixrac əməliyyatlarının maliyyələşdirilməsi alətlərinin siyahısının müəyyən olunması və ilkin olaraq pilot rejimdə tətbiqinə dair layihənin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması | 01.03.2023 | İqtisadiyyat Nazirliyi (AZPROMO, Sahibkarlığın İnkişafı Fondu), Mərkəzi Bank | Tural Hacılı, Elxan Quliyev, Ataxan Həsənov |
| **3.2. Rəqəmsal ticarətlə məşğul olmaq üçün vaxt və xərclər** | | | | | |
| 3.2.1. | Rəqəmsal ticarət üzrə malların ixracına sərf olunan vaxt və xərclər | 1. Rəqəmsal ticarət vasitəsilə ixracın rəsmiləşdirilməsi ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsi və nəticələri üzrə müvafiq təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.04.2023 | İqtisadiyyat Nazirliyi (Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, AZPROMO), Dövlət Gömrük Komitəsi | Zaur Qardaşov, Kamran Əhmədov, Tural Hacılı, Rauf Məmmədov, Tuncay Əlibəyli |
| | | 2. Sığorta şirkətləri tərəfindən kiber məsuliyyət sığortası məhsulunun təqdim edilməsinin təşviqi ilə bağlı zəruri tədbirlərin görülməsi | 01.04.2023 | Mərkəzi Bank | Ataxan Həsənov |
| **3.3. Risklərin idarə olunması sisteminin səmərəliliyi** | | | | | |
| 3.3.1. | Dərhal buraxılış məqsədilə və sənədlərin yoxlanılması üçün seçilmiş yüklərin xüsusi çəkisi | Risklərin idarə edilməsi sisteminin yenidən qurulması üzrə icra olunan layihə çərçivəsində dərhal buraxılış üçün seçilən yüklərin xüsusi çəkisi üzrə yenilənən göstəricilərin işçi qrupa təqdim edilməsi | Mütəmadi | Dövlət Gömrük Komitəsi | Rauf Məmmədov, Ziya Ağayev |
| **3.4. Gömrük agentliyi proqramlarının səmərəliliyi** | | | | | |
| 3.4.1. | Malların gömrük ərazisinə gətirilməsindən əvvəl rəsmiləşdirilmiş gömrük bəyannamələrinin xüsusi çəkisi | 1. Qısa idxal bəyannaməsinin təqdim edilməsi (o cümlədən vaxtında təqdim edilməməsinə görə cərimənin tətbiqi) mexanizminin təkmilləşdirilməsi üzrə beynəlxalq təcrübənin öyrənilməsi və qanunvericilikdə müvafiq dəyişikliklərlə bağlı təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.05.2023 | İqtisadiyyat Nazirliyi, Dövlət Gömrük Komitəsi | Kamran Əhmədov, Rauf Məmmədov |
| | | 2. Gömrük təmsilçiliyi (broker) xidmətləri göstərən sahibkarlıq subyektləri ilə mövcud problemlərlə əlaqədar müzakirələrin aparılması və təmsilçilik xidmətlərinin təkmilləşdirilməsi istiqamətində təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.05.2023 | Dövlət Gömrük Komitəsi, İqtisadiyyat Nazirliyi (Kiçik və Orta Biznesin İnkişafı Agentliyi) | Rauf Məmmədov, Zaur Qardaşov |

| | | | | |
|---|---|---|---|---|
| **4. Məlumatlandırma və koordinasiya tədbirləri** | | | | |
| 4.1. | Azərbaycanda 2022-ci il üzrə real tətbiq olunan orta çəkili tarif dərəcəsi, habelə “0 faiz” idxal rüsumu tətbiq olunan məhsullar barədə statistik göstəricilərin (o cümlədən sərbəst ticarət sazişləri, sənaye parklarının rezidentləri, investisiya təşviqi sənədi verilmiş hüquqi və fiziki şəxslər, idxal gömrük rüsumlarından azad edilmiş digər kateqoriyalar ayrıca göstərilməklə) aidiyyəti beynəlxalq qurumlara ötürülməsi üçün İqtisadiyyat Nazirliyinə təqdim edilməsi və İqtisadiyyat Nazirliyi tərəfindən həmin məlumatların tələb olunan formada Ümumdünya Ticarət Təşkilatına (ÜTT), Beynəlxalq Ticarət Mərkəzinə və Dünya Bankına ötürülməsinin təmin edilməsi, habelə ÜTT-nin müvafiq məlumat bazalarında (www.tao.wto.org, www.tariffdata.wto.org) Azərbaycanın ticarət profilinin yenilənməsi | 15.06.2023 | Dövlət Gömrük Komitəsi, İqtisadiyyat Nazirliyi | Tariyel Alverdiyev, Fuad Məmmədov, Gülçin Ələsgərova |
| 4.2. | Tərkibində əqli mülkiyyət hüquqlarının obyektləri olan malların reyestri ilə bağlı biznes subyektlərinin məlumatlılığının artırılması məqsədilə tədbirlərin təşkil edilməsi, habelə həmin mallar üzərində gömrük nəzarətinin aparılması sahəsində gömrük orqanlarının vəzifəli şəxsləri üçün təlimlərin keçirilməsi | 01.04.2023 | Dövlət Gömrük Komitəsi, Əqli Mülkiyyət Agentliyi, İqtisadiyyat Nazirliyi (Kiçik və Orta Biznesin İnkişafı Agentliyi) | Rauf Məmmədov, Rəcəf Orucov, Zaur Qardaşov |
| 4.3. | Sahibkarların xarici ticarət sahəsi üzrə bilik və bacarıqlarının artırılması məqsədilə onlara təlimlərin (ticarət qanunvericiliyi, gömrük prosedurları, qida təhlükəsizliyi və digər mövzularda) keçirilməsi | Mütəmadi | İqtisadiyyat Nazirliyi (Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, AZPROMO), Dövlət Gömrük Komitəsi, Qida Təhlükəsizliyi Agentliyi | Zaur Qardaşov, Tural Hacılı, Rauf Məmmədov, Əkbər Əliyev |
| 4.4. | Beynəlxalq reytinqlər üzrə sorğularda iştirak edən şirkətlərlə (rezident və qeyri-rezident) müvafiq sahədə əməkdaşlığın davam etdirilməsi və genişləndirilməsi | Mütəmadi | Bütün aidiyyəti qurumlar | İşçi qrupun bütün üzvləri |
| 4.5. | Beynəlxalq reytinqlər üzrə hesabatları hazırlayan ekspert və ya qiymətləndirmə qrupları ilə əməkdaşlığın genişləndirilməsi və ölkədə faktiki göstərici və ya qanunvericilik tələbi barədə məlumatların Komissiyanın Katibliyi ilə razılaşdırılmaqla onlara çatdırılması | Mütəmadi | Bütün aidiyyəti qurumlar | İşçi qrupun bütün üzvləri |